

# Şeir payı da var riyaziyyatın!

Oqtay Rza

## Yüz

Nə qəribə rəqəmsən, yüz!
Gah dostsan, gah rəqibsən, yüz!
Cığırdaşın neçə-neçə
Dəyərli söz:
Məsələn, dərəcə, qram,
daha nə?
...Xəstə həkim sağalıb,
Seçicilər yığılıb - yüz faiz.
Birinin verdiyi vəd,
Birinin dərdiyi dərd -yüz faiz.
Avazlar, ünlər, cürbəcür:
Cəh-cəh, civ-civ, cik-cik.
Qılınc olub asılardı
Başımızın üstündən hey
Plan, əlavə öhdəlik...
Düşür yadıma hərdən
Qədim Bayıl, Bibiheybət,
Köhnə mədən, acı söhbət.
Cavan usta deyəndə ki,
Bu ilki
nəticəmiz -
Qaz qarışıq yüz...
Müdir bağırtısı sanki
Parıltısız iti bucaq:
"Sən mənə ancaq
Durusundan danış,
"qızıl"ın durusundan!"
Cavan usta qovuldu
İclasın yarısından.
... Yarışdır, ya dava
"Yüzxanalı dama?"
Susmağı bacarmıram,
Qınama, əzizim, qınama!
Mühüm iş adamı
Yüz dollar bağışladı
Gənc müğənni xanıma.
Kasıb yazar - masabəyi
Baxırdı müqəvva tək,
Qismətində - tort və köynək.
...Qərinələr ötsə də,
Xeyli dərs öyrətsə də,
Qaynaqlanmır qətiyyən
İnsaf - farsa,
Mürvət -rusa,
Bütövlük - ərəbə.
İngilisin, fransızın
Tarixini zədələyib
"Yüzillik müharibə".
...Lüğətlərə sığınsa da
Nimdaş rütbə - "yüzbaşı",
Yenə məmur cildindədir
Yüz tüfeyli, yüz naşı!
...Uran qədər məşhur deyil
Yüz saylı ünsür - fermium,
Necə evin şairini
Tanıyır ən yaxın qohum.
...Aləm eşitsin səsimi:
Qərbin "Yüz edam" kitabından
Vüqarla boylanır
Şərqin igid oğlu Nəsimi!
...Antik dövrə şığıyır
Xəyalımın qartalı;
Görürəm bir döyüşdə
Orduya qalib gəlir
Qoçaq "yüz spartalı".
...Ev tikmək üçün
Almaq istədim
Taxta, mismar, kərpic...
Ağsaqqal buyurdu:
"Yüz ölç, bir biç".
...Telegüzgü dastanımı
Yüz hissəli film-kino?
Milyon-milyon azarkeşin
Yuxusunu qaçırır o.
...İşsizlərin təsəllisi -
Səhərdən axşama qədər
Şaqqıldayan nərd, domino:
Biri "mars"lı, "tas"lı... biri -
"Heç-heçə"siz bitməlidir,
Hesab yüzü ötməlidir.
...Yüz gün - cocuq ömrünün
Başlanan silsiləsi.
Yüz yaş - Şahdağ, Comolunqma,
Qocalıq zəlzələsi.
Yüz gün - prezidentliyin
Giriş fəsli.
Yüz yaş - ustad Ələsgərin,
Müdrik Vidadinin
Geridə qoyduğu yol,
Şirəli Müslüm babaya
Aldırıb dördüncü əyal.
Kimindir bu fəryad -
"...Yüzə nə qaldı?"
Kimindir bu irad:
"Hər kim yüz il yaşamasa..."
Kimindir bu misra, həzərat:
"Bir bayraq altında yüz min millətin"?
Bir həzin bayatıya
Kim vurub yüz ilməni:
"Vəfalı yar unutmaz,
Gözləyər yüz il məni".
...Ayı tamaşa göstərmir,
Daha yoxdur "yüz oyunu".
Niyə yüz on bala vermir
Xanbalanın yüz qoyunu?!
Müfəttişlər durub tində:
Şəhərin baş küçəsində
Bir harın gənc
Guya cəbhə yara-yara,
İşıqfordan - işıqfora
"Mersedes"i sürüb gedir -
Saatda yüz kilometr.
...Nağıl köçür yaddaşına
Böyüyün də, uşağın da;
Nağıl danışardı anam
"Yüzlük lampa" işığında.
...Əsr - yüz budaqlı çinar,
Məlum məchulluq parçası.
Bir ölkənin muzeyində
Yüz ərməğan düzülübdür,
Biri Qarabağ xalçası.
Çoxdan dəymir dilimə
Koryakları Kamçatkada
İsindirən "odlu su".
Buna görə "atəşkəs"i
Pozam gərək
Haysız-küysüz:
Qəm dağıdan piyaləmə
Saqi, yüz süz!
Saqi, yüz süz!

Ədalət 2019.- 23 may.- S.8.